# Ümummilli liderə xalq məhəbbəti

## *Ulu öndər Heydər Əliyevin əbədiyaşarlığını Fəxri xiyabana insan axını bir daha təsdiqlədi*



Adı tarixə yazılan şəxsiyyətləri nə zaman unudur, nə də xalq. Təbii ki, talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq xalqın sevimlisinə çevrilmək də asan deyil, bunu tarix dəfələrlə təsdiqləyib. Bu şərəf, əlbəttə, çoxlarına nəsib olmayan xoşbəxtlikdir. Xalqımızın ümummilli lideri, ictimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını və dühası qarşısında baş endirilməsini şərtləndirən səbəb və onlardan doğan nəticələr kifayət qədərdir.

Dünyaya gəlişi ilə xalqının tarixində və taleyində günəş kimi parlayan ümummilli lider Heydər Əliyevin həyat yolu, fəaliyyəti barədə dəfələrlə söz açılsa, yaddaşlara yazılsa da, hər dəfə ulu öndərin yeni bir müsbət keyfiyyəti, vətənə sevgisinin böyüklüyü üzə çıxır...

...On üç il öncə, 2003-cü ilin soyuq dekabr ayında paytaxt Bakı sükut, qüssə və kədərə bürünmüşdü. O zaman hüznlü baxışlardan, kədər, qəhər və qüssədən damcılayan göz yaşları yanaqları yandırırdı. Dünən, may ayının 10-da isə Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edənlərin çöhrəsində özgə bir təbəssüm vardı. Bunun səbəbi isə odur ki, ulu öndərin memarı olduğu müstəqil Azərbaycan nəinki Cənubi Qafqazda, hətta inkişafına görə dünyanın aparıcı dövlətləri sırasında olduğunu təsdiqləyir. Ulu öndərin müəyyənləşdirdiyi siyasi kurs dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ziyarətə gələnlərin yaş fərqi göstərirdi ki, xalqın qəlbində əbədi məşəl yandıranlar cismən uzaqlaşsalar, haqqın dərgahına qovuşsalar da, mənən yaşayır və əbədiyyət simvoluna çevrilirlər. Anadan olmasının 93 illiyi bahar təravətli gül-çiçəyə bələnmiş ulu öndərin müqəddəs ziyarətgahı yerləşən Fəxri xiyabana insan axını bunun əyani nümayişidir.

Ümumxalq və ümummilli məhəbbətin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. İstər ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, istərsə Azərbaycanın füsunkar təbiətinin gözəlliyini gözləri ilə görməyə gələnlər ziyarətçilərin arasında idilər. Yaşından, vəzifəsindən asılı olmayaraq, ölkənin yüz minlərlə vətəndaşı (nəinki paytaxt sakinləri, respublikamızın ayrı-ayrı bölgələrindən ziyarətə gələnlərin sayı-hesabı bilinmirdi) ulu öndərə sonsuz məhəbbətini ifadə etmək üçün Fəxri xiyabana üz tutmuşdu...

Bakı şəhər sakinləri Adil Şükürov, Xeyrulla Hümbətov, Əlövsət Allahverdiyev, Həbib Misirov, Məzahir Səfərov, Heydər Səfixanov, Nəsib Məmmədov və başqaları hər il ulu öndərin məzarını kollektiv şəkildə ziyarət etdiklərini bildirdilər. Adil Şükürov əlavə etdi ki, Azərbaycanın regionda lider dövlətə çevrilməsi xalqımızın ümummilli liderinin - həyat və fəaliyyətini bütünlüklə müstəqil respublikamızın çiçəklənməsinə, onun dünya birliyində layiqli yer tutmasına həsr etmiş Heydər Əliyevin xidmətləridir.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimlinin fikrincə, ümummilli liderin uzaqgörən və alternativsiz siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Müstəqil Azərbaycan dövlətinin qurulmasında və dövlətçiliyinin qorunub saxlanmasında əvəzsiz xidmətləri olan ulu öndər Heydər Əliyev xilaskarlıq simvoluna çevrilmişdir. Bizim hər birimizin bu ziyarəti ölkə vətəndaşının vətənə və dövlətinin qurucusuna əbədi ehtiramı deməkdir".

Tibb elmləri doktoru, professor, əməkdar həkim Mehman Ağayev də müstəqil dövlətimizin uzaq olmayan, ötən əsrin ortalarındakı ictimai-siyasi vəziyyətinə və ulu öndərin onu aqrar bölgədən sənaye ölkəsinə necə çevirməsindən, bu sahədə misilsiz xidmətlərindən söz açdı: "Çoxlarının sona kimi gedə bilmədiyi çətin və şərəfli yolu mərdliklə başa vuran ulu öndərin mübarizliyinə və əyilməzliyinə - əzmkarlığına xalq güvənirdi! İstər birinci, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu dövrlərdə ulu öndər əsl xalq və millət, vətən və dövlət adamı olduğunu işıqlı əməlləri ilə təsdiq etdi".

Ömrünün ixtiyar çağlarında ulu öndərin müqəddəs məzarını ziyarət etməyi unutmayan Bakı şəhər sakini Telman Musayev Fəxri xiyabana oğlu Azərlə gəlmişdi. Fikrini ifadə edərkən dedi ki, ulu öndərin yalnız özünəxas cəsarəti, möhkəm iradəsi, əsl liderə məxsus bacarığı Azərbaycanın bugünkü inkişafına səbəb olub.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəallarından olan Həbib Misirov isə bildirdi ki, Azərbaycan xalqının xoş və firavan həyatına ömrünü həsr edən ümummilli lider Heydər Əliyev bəşəri şəxsiyyətdir və bu, yeni tariximizin bütün səhifələrində təsdiqlənir: "Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə dünyadakı həmyaşıdları arasında seçilir. Dünyanın ən aparıcı ali təhsil ocaqlarında elmin müasir nailiyyətlərini öyrənən Azərbaycan gəncləri gələcəyin kadrlarıdır. Bu potensiala diqqət yetirən dövlət başçımızla fəxr duyuruq. Həm də ona görə ki, öz ətrafında yüz minlərlə vətənpərvər gənci birləşdirən Yeni Azərbaycan Partiyasının lideridir. Biz gənclik ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla və məqsədyönlü şəkildə davam etdirən liderimiz - Azərbaycan Prezidenti İlham Əliyevlə vətənimizi daha da inkişaf etdirəcəyik. Bu uğurlar isə erməni təcavüzünə məruz qalmış torpaqlarımızın azad olunmasında vacib faktorlardan biridir. Bunu düşmən tərəfin gəncliyi də artıq etiraf etmək məcburiyyətindədir".

Ramin Bəylərzadə, Sənan Sadıqzadə, Anar Məhəmmədov, Elçin Əliyev, Anar Əliyev də ziyarətçilərin arasındakı gənclərdəndir. Elçin Əliyev Hərbi Aviasiya Akademiyasının tələbəsidir. Dostlarının fikrini ümumiləşdirib belə ifadə etdi: "Gəncliyin Heydər Əliyevin ideyaları ruhunda tərbiyə olunması, müdrik rəhbərimizin qurub-yaratdığı müstəqil dövlətimizin şanlı tarixinin onlara elmi əsaslarla mənimsədilməsi və təbliği vacib məsələdir. Azərbaycanla ulu öndərin adı daim qoşa çəkiləcək. Müstəqil dövlətimizin qurulmasındakı misilsiz xidmətləri xalqımızın gözü önündədir. Biz ulu öndərin xalqa sədaqətli xidmət mədəniyyətinin təbliğatçılarına çevrilməli, vətəni onun kimi sevməli və sevdirməliyik".

Öz əməli, xilaskarlıq missiyası ilə tarixdə silinməz izlər qoymuş şəxsiyyətlər azdır. Amma hər xalqın, millətin təkamül tarixində belə şəxsiyyətlər olub. Kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqının köməyinə yetən ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoydu. Ümummilli liderin siyasi kursunun layiqincə davam etdirilməsi nəticəsində Azərbaycan dünyada öz sözünü deyən qüdrətli dövlətə çevrilir.

***Rəhman SALMANLI,***
***Məhəmməd NƏRİMANOĞLU,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***